



# BİZ AZƏRBAYCANLIYIQ!

- Vətəni vətən edən onun mərd oğul və qız övladlarıdır!
- Vətən igid və qeyrətli övladları sayəsində azad, abad, gözəl və qüdrətli olur!
- Vətən fədakar və qəhrəman övladları sayəsində bütün çətinlikləri dəf edir, müşkülləri aradan qaldırır, problemləri yoluna qoyur, düşməni diz çökdürür!

*Torpağı bərəkətli, iqlimi əlverişli, yeraltı və yerüstü sərvətlərlə zəngin, dənizli, güllü, çaylı-çəmənli, meşəli Azərbaycan öz övladlarından heç nəyini əsirgəməyib!*

Onun isti qucağına övlad sevgisi ilə sığınanları daim ana məhəbbəti, ana qayğısı, ana nəvazişi ilə əhatə edib!

Millətindən, dinindən, dilindən, mədəniyyətindən asılı olmayaraq ona ana deyənlərin hər birini doğma balası sayıb, heç zaman heç bir fərq qoymayıb!

**Həyatın müxtəlif sınaqlarından şərəflə çıxanları isə daim yüksək qiymətləndirib, mükafatlandırıb, hörmətli tutaraq xatirəsini əbədiləşdirib.**

❖ ❖ ❖

*Ötən ilin son günləri baş verən sarsıdıcı faciə haqqında rəsmi məlumatlar belədir:*

25 dekabr 2024-cü ildə Bakıdan Qroznıya uçan "Azərbaycan Hava Yolları"na (AZAL) məxsus "Embraer 190" tipli sərnişin təyyarəsi Rusiya səmasında vurularaq zədələnmiş, hava limanına eniş edə bilməmişdir.

Onu yaxınlıqdakı aeroportlar da qəbul etməmiş, qəzalı vəziyyətdə olan təyyarə Qazaxıstanın Aktau hava limanına üz tutmuşdur!

Təyyarə aeroportun üç kilometrliyində eniş edərkən qəzaya uğramış, çoxsaylı insan tələfatı baş vermişdir.

**Sankt-Peterburq şəhərində keçiriləcək MDB-yə üzv ölkələrin dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilmiş, hadisədən xəbər tutan dövlət başçısı dərhal geri dönərək Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirmiş, qəzanın nəticələrinin aradan qaldırılması və hadisənin səbəblərinin araşdırılması üçün müvafiq göstərişlər vermişdir.**

Prezidentin sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış dövlət komissiyasının ilk iclası keçirilmişdir.

*Baş nazir Əli Əsədovun rəhbərliyi ilə müvafiq qurumların da daxil edildiyi dövlət komissiyası qəzanın səbəblərinin qısa müddətdə araşdırılması, həlak olmuş və xəsarət almış şəxslərin ailələrinə müvafiq yardım göstərilməsi ilə bağlı zəruri addımlar atmışdır.*

Yaralılara dərhal tibbi yardım göstərilmiş, sonra onlar və həlak olanlar xüsusi təyyarələrlə Bakıya gətirilmişdir.

Dünyasını dəyişənlər torpağa tapşırılmış, yaralılar isə müalicə olunmaqdadır.

**Ən nəhayət, dekabrın 28-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyevə zəng vuraraq baş vermiş faciə ilə bağlı üzrxahlığını ifadə etmiş, qəzada həlak olanların ailələrinə və yaxınlarına başsağlığı vermişdir.**

Telefon söhbəti zamanı dövlət başçıları faciənin bütün təfərrüatlarının ciddi və hərtərəfli araşdırılmasını, günahkarların məsuliyyətə cəlb olunmasını müzakirə etmiş, həmçinin faciə ilə əlaqədar başlanılmış istintaq prosesinin tam şəffaf şəkildə aparılacağını və mütəmadi qaydada ictimaiyyətə məlumat veriləcəyini vurğulamışlar.

*Təyyarədə 37-si Azərbaycan, 16-sı Rusiya, 6-sı Qazaxıstan, 3-ü Qırğızıstan vətəndaşı olmaqla, 5 nəfər heyət üzvü ilə birlikdə 67 nəfər olmuşdur.*

*Onlardan 38-i həlak olmuş, 29-u sağ qalmışdır.*

❖ ❖ ❖

Artıq yerə salamat eniş etməyəcəyi bəlli olan "Embraer 190"da azərbaycanlı da vardı, rus, ləzgi, qazax və qırğız da.

**Amma onların hamısı azərbaycanlı sayılırdı!**

- Çünki zədəli təyyarə Azərbaycana məxsus idi.
- Çünki onu idarə edənlər azərbaycanlı idilər.
- Çünki Azərbaycanda belə qəbul olunub: milli və dini ayrı-seçkilik yoxdur, bir dam altında yaşayanların hamısı azərbaycanlı hesab olunur.

**Azərbaycanlılar isə əqidələrinə və vəzifə borclarına sadiq olurlar!**

**Azərbaycanlılar dostlarını, dar gündə onlara sığınanları köməksiz qoymurlar...**

**Hətta həyatları bahasına olsa da belə!**

*Azərbaycanda yaşayaraq Azərbaycan tərbiyəsi alan, bu xalqın milli-mənəvi dəyərlərini öyrənərək mənimsəyənlər də daim özlərini belə aparırlar!*

Tariximizin yaxın günlərinin sınaqları bunu bir daha təsdiq etdi!

Mübariz İbrahimov da canını Azərbaycanın ərazi bütövlüyü, dövlət suverenliyi, torpaqlarının işğaldan azad olunması uğrunda döyüşlərdə fəda etdi!

Albert Aqarunov da əsl azərbaycanlı kimi döyüşdü!

İsgəndər Aznaurov da düşmənə qarşı mübarizədə canından keçdi!

I və II Qarabağ müharibələrində ölümün üzünə dik baxaraq cəsarətlə düşmən üzərinə gedən, şücaət və qəhrəmanlıqlar göstərərək Azərbaycan adlı vətənə məhəbbət və sədaqətlərini sübuta yetirmiş minlərlə igid övladımız, əsgər və zabitimiz, qazimiz var!

**Milli mənsubiyyət baxımından onlar türk, talış, ləzgi, udi, saxur, ingiloy, rus sayılsalar da, əslində, hamısının mahiyyətcə bir adı var:**

**AZƏRBAYCANLI!**

*Ölümə doğru uçan təyyarənin sükanı arxasında oturanlar da əsl azərbaycanlı idilər!*

*Ən dar məqamda sərnişinlərə təsəlli, ürək-dirək və sağ qalmaq üçün məsləhət verənlər də azərbaycanlı idilər!*

**Hansı ölkə vətəndaşlığını daşımasından asılı olmayaraq, ölümə doğru uçan bu təyyarənin digər sərnişinləri də həmin məqamda azərbaycanlı sayılırdılar!**

**Kimin sağ qalacağı, kimin haqq dünyasına qovuşacağı bəlli olmasa da belə...**

❖ ❖ ❖

Deyirlər ki, insan doğulanda gələcək taleyi - dünyada nələr görüb, nələrə nail olacağı, nə qədər yaşayacağı və harada, nə zaman haqqın dərgahına qovuşacağı alnına yazılır.

(Təəssüf ki, indiyədək "alın yazısı"nı oxumaq kimsəyə nəsib olmamışdır).

Bəzən cənab Əzrayıl gələrək bir qrup adamı özü ilə məsləhət bildiyi yerə aparır...

Bu da bir qismətdir.

Bakıdan Qroznıya uçan 67 nəfər sərnişindən 38 nəfərinin taleyinin son nöqtəsi isə eyni imiş.

**Bu dəhşətli qəzadan sağ çıxan 29 nəfərin "alın yazısı"nın "dəyişməsi"ndə isə AZAL-a məxsus təyyarənin uçuş heyətinin fədakarlığı mühüm rol oynamışdır.**

**Qəhrəmanlıq səviyyəsinə yüksələn əsl fədakarlıq!**

*Heyətin hər bir üzvü öz qorxusunu, öz ümidsizliyini mərdliklə içində dəf edərək sərnişinlər üçün ümidə, xilas olacaqlarına inama çevrildi.*

*Üstəlik, təyyarənin içərisini "kiçik Azərbaycan"a çevirərək, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə uyğun davranış nümayiş etdirdilər.*

❖ ❖ ❖

**Hava gəmisinin kapitanı İqor Kşnyakin idi.**

**Həyatını sevib-seçdiyi peşəsinə - təyyarə pilotluğuna həsr edən azərbaycanlı rus!**

Ömrünün bir hissəsini səmada keçirmişdi.

Təqaüdə çıxmasına az qalıbmış...

*Amma heç cür təyyarədən və səmadan ayrılmaq istəmirmiş...*

*Elə ayrılmadı da...*

Bütövlükdə 67 nəfərin hamısı xəyanətin, məkrin və qəddarlığın qurbanına çevrilmişdi.

İlkin araşdırmalar göstərir ki, Azərbaycan təyyarəsi qəsdən, yaxud bilməyərəkdən raket hücumuna məruz qalaraq "Pantsir - S1" zenit-raket kompleksi tərəfindən vurularaq ciddi zədə alıbmış.

"Qəsdən, yaxud bilməyərəkdən" ifadəsini təsadüfən işlətmirik.

Ukrayna-Rusiya müharibəsi şiddətlə davam etməkdədir və hər iki tərəf bir-birlərinin başına göydən od ələməkdədir.

**Amma ortaya məntiqi sual da çıxır: Əgər Bakı-Qroznı reysində belə bir təhlükə vardısa, onda niyə hava məkanı mülki təyyarələrin uçuşuna bağlanmayıb?!**

Ən dəhşətlisi isə sonrasıdır...

Təyyarə vurulub və Qroznı hava limanına enə bilməyib!

**Daha bir sual: Onda niyə yaxınlıqdakı hava limanlarından birinə - Mahaçqala və ya Minvoda enişinin təhlükəsiz təmini üçün dərhal zəruri tədbirlər görülməyib?!**

Əksinə...

**Xəyanət və qəddarlıq variantını isə hamıdan qabaq və hamıdan yaxşı təyyarənin kapitanı İqor Kşnyakin başa düşüb.**

Təyyarə digər bir dövlətin ərazisinə - Qazaxıstanın Aktau hava limanına yönləndirilib.

*Üstəlik, "radarlardan itirilib", onunla radio əlaqəsi kəsilib...*

*Əslində, bu üsulla gedər-gəlməzə göndərilib...*

**Lakin İqor Kşnyakin əsl komandir, əsl azərbaycanlı kimi nə hiyləyə uyub, nə də tələyə düşüb!**

*Bütün mənəvi və fiziki gücünü səfərbər edib, şər qüvvələrə qarşı mərdcəsinə mübarizə aparıb!*

*Başa düşüb ki, "səhv"lərini düzəltmək istəyənlər cinayətlərinin izini Xəzərdə itirmək niyyətindədirlər.*

**Odur ki, onları dənizə yönəldərək zədəli təyyarəni uzun yolda sulara qərq etmək, qara qutu ələ keçməsin deyə dənizin dibində itirmək tələsi qurublar!**

*Təyyarədəki 67 nəfərin də ən məlumatlısı İqor Kşnyakin idi.*

*Çünki təyyarənin də vəziyyətini, mənfur planın da məqsədini hamıdan gözəl anlayır, yerə sağ-salamat enməyin mümkünsüzlüyünü yaxşı başa düşürdü!*

**Amma emosiyaya qapılmadan, özünü itirmədən sükandan möhkəm yapışaraq biliyi və təcrübəsi sayəsində mümkün olmayanı mümkün edərək təyyarəni quruya endirib!**

Əsl qəhrəmanlara xas olan xarakteri, vəzifə borcuna vicdanlı və məsuliyyətli münasibəti ona bir an belə ruhdan düşməyə, ümidini itirməyə imkan verməyib!

Öz ölümünün labüdlüyünü qəbul edən İqor Kşnyakin ən az itki verilməsinə çalışırdı.

**Həm də təyyarənin Xəzərdə bataraq faciənin sirrini özü ilə aparmasına da yol vermədi!**

**Təyyarəni suya endirəcəyi halda sərnişinlərin sağ qalma ehtimalının olmayacağını yaxşı bildiyindən özünü toparlayaraq Aktau hava limanının lap yaxınlığına çatdıra bildi.**

*Xəzər üzərindəki 50 dəqiqəlik "ölüm uçuşu"nu 29 insanın həyata qayıdışı ilə əvəz edərək son səfərini quruya enişlə başa çatdırdı.*

**Bu qəhrəmanlığı ilə, əslində, ölümsüzlüyə qovuşdu!**

**Həm də sübut etdi ki, azərbaycanlı gəmi komandiri necə olur!**

❖ ❖ ❖

Heyət üzvlərinin ən cavanı isə Aleksandr Kalyaninov idi.

Uşaqlıqdan atası kimi pilot olmaq arzusu vardı və oldu da.

*Amma tale ona sevimli peşəsində çox çalışmaq imkanı vermədi.*

31 yaşlı bu yaraşıqlı, gülərüz oğlan hələ subay idi...

Yəqin sevdiyi qız, gələcəklə bağlı xoşbəxt planları da varmış.

Sən öz saydığını say...

**Kapitan həmkarı ilə birlikdə sonadək təyyarənin sükanından əl çəkmədi, sevimli komandirini hər iki dünyada tək qoymadı!**

*Axı Saşanın atası yox idi...*

*Əli indi-indi çörəyə çatırdı...*

Fələyin yazdığını mən poza bilsəydim əgər...

*Kapitanla çiyin-çiyinə sonadək çarpışdılar, axıradək mübarizə apardılar!*

*Ölümün acığına 29 nəfəri ölümdən qurtardılar!*

**"Öldü" sözü heç yaraşmır azərbaycanlı rus balası Aleksandr Kalyaninova...**

**Hər bir azərbaycanlının ürəyində özünə əbədi yurd saldı!**

❖ ❖ ❖

*"Aslanın erkəyi, dişisi olmaz" - Azərbaycan atalar sözüdür.*

*Bu misal Hökumə Əliyevaya da aiddir!*

Əsl Azərbaycan gözəli idi...

Amma taleyi doğulduğu Kəlbəcər rayonunun taleyinə bənzədi...

Həm döyüşdü, həm də...

**"Məğlub oldu" deməyə adamın dili gəlmir!**

**Çünki Hökumə Əliyeva mənən qalib gəldi!**

Təyyarə zədələnəndən sonrakı müddətdə daim salonda oldu, insanlara ürək-dirək verdi, düzgün yol göstərdi, ümidlərinin itməsinə imkan yaratmadı.

**Hökumə də bilirdi ki, təyyarədəkilərin hamısı, əslində, ölümə məhkumdur.**

**Yalnız təsadüfən sağ qala bilərlər!**

*Amma o, ümidsiz təsadüfü ümidə çevirməyi bacardı, insanları təşvişə düşərək səhv etməkdən qorudu!*

*Sonadək gözlərinin içinə baxaraq təsəlli verdi: "Hər şey yaxşı olacaq!" dedi.*

Dediyinin bir qismi doğruldu, ölümün pəncəsindən qurtaranlar da oldu!

**Təəssüf ki, Hökumə Əliyeva onların arasında deyildi!**

**Amma ölümdən güclü çıxmağı bacardı, adını qəhrəman Azərbaycan qadınlarının sırasına yazdıra bildi!**

Bu məqamda heyət üzvlərindən daha ikisinin adını çəkmək istərdik:

Aydan Rəhimli və Zülfiqar Əsədov!

*Xoşbəxtlikdən taleləri digər ekipaj üzvlərinin taleyindən fərqli oldu!*

*Yaralansalar da, sağ qaldılar!*

**Amma onlar da sonadək vəzifə borclarını vicdanla, fədakarcasına yerinə yetirdilər!**

Tezliklə sağalmalarını, yenidən Azərbaycana məxsus təyyarələrdə səmaya ucalmalarını arzu edirik!

❖ ❖ ❖

Bir məqamı da qeyd etməyi vacib sayırıq:

**Qazaxıstanlı qardaşlarımız bu sınaqdan alnıaçıq çıxdılar!**

**Bizimlə əsl qardaş, dost olduqlarını əyani şəkildə nümayiş etdirdilər.**

*Həm də mərdliklə, cəsarətlə, qorxmadan, öz həyatlarını təhlükə qarşısına qoymaqla:*

- Dərhal hadisə yerinə gəldilər.
- Yanan təyyarənin partlaya biləcəyinin mümkünlüyünü dərk etsələr də, geri çəkilmədilər, onun içərisindəki insanlara kömək üçün tərəddüd etmədən özlərini oda atdılar.
- Yaralılara dərhal ilkin yardım göstərərək yubanmadan xəstəxanaya çatdırdılar.
- Tibb işçiləri yaralıların həyatını xilas etmək üçün bütün bilik və bacarıqlarını əsirgəmədilər.
- Qan itirmiş insanlara köçürmək üçün tərəddüd etmədən, çağırış gözləmədən növbəyə duraraq qanlarını verdilər.
- Ən nəhayət, hadisənin obyektiv və peşəkarlıqla araşdırılmasını təmin etməkdən ötrü Azərbaycanın təklifinə üstünlük verərək beynəlxalq komissiyanın təşkilinə dəstək verdilər.

**Azərbaycan Prezidenti cənab İlham Əliyev hadisə ilə bağlı Azərbaycan Televiziyasına müsahibəsində qazaxıstanlı qardaşlarımızın fədakarlığını yüksək qiymətləndirdi:** *"Qəza baş verən kimi Qazaxıstan xilasediciləri dərhal hadisə yerinə yetişdilər və insanları o dağılmış füzelyajdan çıxarmağa başlamışdılar. Öz həyatlarını risk altına atmışdılar. Çünki onlar bilmirdilər ki, növbəti partlayış olacaq, yoxsa yox. Çünki təyyarənin bir hissəsi yanmışdı və bu hissə də yana bilərdi. Amma buna baxmayaraq, onlar da əsl qəhrəmanlıq göstərmişdilər".*

**Onlar bu mövqe və əməlləri ilə əsl dost, qardaş, strateji müttəfiq olduqlarını ən çətin günümüzdə əməli işləri ilə sübuta yetirdilər.**

❖ ❖ ❖

Təyyarə qəzasında həlak olanların hər biri bir evin çırağı idi.

*O çırağı namərdcəsinə, qəddarlıqla söndürdülər.*

*Azərbaycan isə bütün övladlarına sahib çıxdı, zəruri addımların hamısını atdı.*

**Dövlət başçısı İlham Əliyevin tapşırığı ilə yaralılara dərhal qayğı göstərildi, Azərbaycandan tibb işçiləri göndərilərək müalicələri nəzarətə götürüldü.**

Sonra ölkəyə gətirilmələri təmin edildi və hazırda müalicələri davam etdirilir.

*Dünyasını dəyişənlər də el adəti ilə doğma yurdlarında torpağa tapşırıldılar.*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ekipaj üzvlərinin yas mərasimində iştirak edərək doğmalarına başsağlığı verdilər.**

**Bundan sonra cənab İlham Əliyev qəhrəmanlıq nümunəsi göstərən təyyarənin kapitanı İqor İvanoviç Kşnyakini, ikinci pilot Aleksandr Georgiyeviç Kalyaninovu və təyyarə bələdçisi Hökumə Cəlil qızı Əliyevanı Azərbaycanın Milli Qəhrəmanı adı ilə təltif etdi.**

Rusiya Prezidenti V.Putinlə ikinci telefon danışığından sonra Prezident İlham Əliyev bir daha qətiyyətli mövqeyini ortaya qoyaraq atılacaq növbəti addımlar barədə xalqımızı məlumatlandırdı: *"Biz öz tələblərimizi açıq şəkildə Rusiya tərəfinə bildirmişik. Dekabrın 27-də artıq bu tələblər rəsmi qaydada onlara çatdırıldı. Bu, nədən ibarətdir? Birincisi, Rusiya tərəfi Azərbaycandan üzr istəməlidir. İkincisi, öz günahını etiraf etməlidir. Üçüncüsü, günahkarları cəzalandırmalıdır, cinayət məsuliyyətinə cəlb etməlidir və Azərbaycan dövlətinə və zərərçəkən sərnişin və ekipaj üzvlərinə təzminat ödəməlidir. Bu, bizim şərtlərimizdir. Onlardan birincisi artıq dünən təmin edildi. Mən ümid edirəm ki, digər şərtlərimiz də qəbul ediləcək. Bütün bu şərtlər ədalətlidir. Burada hər hansı bir fövqəladə tələb, yaxud da ki, məsələ yoxdur və bu, beynəlxalq təcrübəyə və normal insani davranışa əsaslanır".*

❖ ❖ ❖

**Bəli, biz Azərbaycanlıyıq!**

**Azərbaycanın rəhbəri isə cənab İlham Əliyevdir!**

*Azərbaycan Prezidenti təyyarənin vurulması ilə bağlı özünün ədalətli, beynəlxalq hüquq və normalara əsaslanan qəti və dəyişməz şərtlərini açıq şəkildə bəyan etdi!*

İnanırıq ki, Azərbaycanın təkidi və qəti mövqeyi sayəsində beynəlxalq ekspertlərdən ibarət işçi qrupu əsl həqiqəti meydana çıxaracaq, bu qəddar faciədə əli olanlar öz cəzalarına çatacaqlar.

**Bəxtiyar SADIQOV**